# MİFİK DÜNYADAN DASTAN DÜNYASINA BAXIŞ

*(Əvvəli ötən sayımızda)*

Riyazi mifologiyada "7", ya "40" günlə işarələnən bu "yaman gün"ün ömrü kosmik çağımızda 30 il çəkdi. Xaos dünyasında - aralıq dünyada qalan oğuz övladları olan biz azərbaycanlılar toparlandıq, nəhayət ki, 44 günlük savaş nəticəsində (əslində bu 44 gün elə "40" rəqəminə uyğun gəlir) qaçqınlıq - köçkünlük adlı xaotik əhvalımızdan xilas olub, yenidən əvvəlki kosmik durumumuzu bərpa etdik. Bu gün düşmənlərimizin bərbad hala qoyduqları, xarabazarlığa çevirdikləri yurd yerlərimizi - Cəbrayıl şəhərini, Ağalı kəndini (Zəngilan), Ağdamı və s. yerlərimizi abadlaşdırıb kosmik-nizamlı yaşayışımızı bərpa edirik. Bax Qazan xanın evinin yağmalanması boyunda olduğu kimi, kosmosu dağıdılan - evi, xanimanı dağıdılan Qazan xan xaotik durumla üz-üzə qalır, sonra mübarizə, əzmkarlıqlar göstərib, əmlakını və s. geri qaytarıb, öz yurduna dönüb, yenidən xanlıq taxtına əyləşməklə kosmosu necə bərpa edirsə, bu gün bizim real dünyamızda da eyni oxşar mənzərənin şahidi olduq. Ali Baş Komandanın, rəşadətli Azərbaycan ordusunun müzəffər qələbəsi kosmosumuzu - torpaqlarımızın azadlığını beləcə təmin etdi.

Mifoloq - alim Seyfəddin Rzasoyun mifik dünya modeli prizmasından yanaşıb təhlil etdiyi və çıxardığı nəticələri mən müasir dünyamızda da eynilə belə gördüm. Kim bilir, bəlkə də, min illər sonra da bizim bugün müasir dövrdə yaşadıqlarımız da dastanlaşacaq, gələcək nəsillər bu reallığı da KDQ-dakı kimi mifik örtüyə bürünmüş şəkildə xalq yaradıcılığı nümunələrindən elə bu sayaq eşidib agah olacaqlar. Bu da mənim düşündüklərimdir Seyfəddin müəllimin əsərindən aldığım təəssürat sayəsində.

Professor Seyfəddin Rzasoyun Qorqudşünaslıqla bağlı yadığı kitab(lar)ın elmi-nəzəri zənginlikləri barədə bir kitablıq söz də yazsam bəs eləməz. İnanıram ki, Qorqudşünaslıqda yeni konsepsiyalarla zəngin kitablar ortaya qoyan Seyfəddin müəllimin bu istiqamətdə silsilə kitabları davam edəcək, eləcə də onun nəzəri-elmi tezislərlə dolğun fikirləri ətrafında isə yeni Qorqudşünaslar nəsli yetişəcəkdir. Folklorşünaslığımıza dediyim hər iki istiqamətdə davamlı uğurlar arzulayıram.



*Şakir ALBALIYEV,*
*AMEA Folklor İnstitutunun aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru, dosent*